*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 274-279*
https://doi.org/10.59849/2224-9257.2024.1.274

**ARZU MƏMMƏDOVA**
**Azərbaycan Texniki Universiteti**
**25 Hüseyn Cavid Prospekti, Bakı 1073**
**Elektron poçt ünvanı: Arzumemmedova1998@bk.ru**

# XARİCİ DİL DƏRSLƏRİNİN TƏDRİSİ ZAMANI MOTİVASİYANIN ÖNƏMİ

## XÜLASƏ

Müasir təlimə keçiddən sonra klassik öyrənmə-tədris metodlarından uzaqlaşan dilçi alimlər və pedaqoqlar xarici dil tədrisində, xüsusən də sinif mühitində şagirdlərə fərqli metodların tətbiqi ilə bağlı çoxlu araşdırmalar aparmışlar. Araşdırma nəticəsində xarici dilin tədrisi prosesində motivasiya anlayışının çox mühüm rola malik olduğu bildirilmişdir.Bir sözlə, yüksək motivasiya xarici dilin öyrənilməsi və öyrədilməsinin əsasını təşkil edir. Müəllim müxtəlif yollarla öz şagird və tələbələri ilə motivasiya qura bilir. Bunlara misal olaraq, dərs zamanı dil bacarıqlarının inkişafı üçün müxtəlif oyunların təşkili, videolardan istifadə, şəkillər vasitəsilə hadisənin təsviri və s. göstərmək olar. Lakin, müəllim bu üsullardan istifadə edərkən bəzi məqamlara diqqət yetirməlidir. Çünki sinif daxili fəaliyyətlər şagird və tələbələri düşünməyə təhrik etməli, onların idrak fəallığının artırılmasına səbəb olmalıdır. Bir sözlə, dərsin başqa mərhələlərində olduğu kimi, motivasiya mərhələsində də rəngarənglikdən istifadə etmək müəllimin işə yaradıcı yanaşmasının məhsulu kimi meydana çıxır. Bu isə şagird və tələbələrin qısa zamanda daha uğurlu və dərslərinə daha həvəsli olmalarına gətirib çıxarır. Buna görə də deyə bilərik ki, yüksək motivasiya tələbələrin xarici dili daha yaxşı mənimsəməsinə və öyrənməsinə təsir edən başlıca amildir. Xarici dil tədrisində uğurlu nəticə əsasən motivasiyadan asılı olsa da , öyrənmə və öyrətmə mühiti, müəllim-tələbə münasibətləri və bəzi digər səbəblər də vurğulanmışdır. Tədqiqatın əsas mövzusu xarici dil dərslərində motivasiya və onun əhəmiyyəti, motivasiyanın iki əsas növü, xarici dilin mənimsənilməsində motivasiyanın artırılması üçün təkliflər, dil dərslərinin maraqlı təşkil etməyin yolları və onların ətraflı şəkildə təhlilidir.

**Açar sözlər:** motivasiya nədir, təhsildə motivasiyanın önəmi, daxili və xarici motivasiya, motivasiyanı artırmaq üçün təsirli strategiyalar və təkliflər.

Günümüzdə xarici dil öyrənmək seçim və ya hobbidən çox zərurətə çevrilib. Qloballaşan dünyamızda dil bilmək hər zaman bir addım öndə olmaq deməkdir. Lakin dil öyrənmək uzun və çətin bir prosesdir. Bu prosesə başlamaq isə vacib bir qərardır və bütün öyrənmə prosesi bu qətiyyət səviyyəsindən asılı olaraq irəliləyir. Öyrənilən dili sevmək bu prosesi dəstəkləyən vacib amillərdən biridir. Əlbəttə ki, bu dövr insanın öyrənmə qabiliyyəti, öyrənmək istəyi, gündəlik həyatda öyrəndiyi dildə danışma imkanları, dil öyrənmə meyli, və s. kimi bir çox fərqli məsələdən asılı

olaraq dəyişə bilər. Elm və texnologiyada baş verən sürətli və qaçılmaz dəyişikliklərlə əlaqədar olaraq digər inkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də xarici dilin öyrənilməsi vacib hesab olunur. Xarici dil öyrənmə proseslərində həm şəxsi xüsusiyyətlər, həm də motivasiya böyük əhəmiyyət kəsb edən iki əsas amildir. Bütün tələbələr fərqli şəkildə öyrənir və motivasiya olunurlar. Buna əsaslanaraq, bu araşdırmada xarici dilin tədrisində motivsasiya, daxili və xarici motivasiyanın rolu, tələbələrin şəxsi xüsusiyyətləri ilə xarici dil öyrənmə səviyyəsi və nəhayət, xarici dil öyrənmədə öyrənənlərin motivasiyasını artırmaq üçün aparılan tədqiqatlar müzakirə olunacaq.

**Motivasiya nədir?**

Motivasiya tələbələrin dil öyrənmə əzmini və marağını artıran təsirli bir elementdir. İkinci və ya xarici dil öyrənmədə müvəffəqiyyətə təsir edən amillərdən biri olan motivasiya, dil öyrənmə prosesini başlatan, istiqamətləndirən və sonra onu davam etdirən hərəkətverici qüvvə kimi müəyyən edilir. Qardnerə görə dil öyrənmədə motivasiya "Fərdin hədəf dili öyrənmə istəyi, bunun üçün səy göstərməsi və öyrənmə prosesindən zövq almasıdır". Motivasiya sözünün mənşəyinə nəzər saldıqda onun hərəkət etmək mənasını verən latınca movere sözündən gəldiyi görülür. Xarici dil bacarıqlarına yiyələnmək həm şəxsi inkişaf, həm də iş imkanları üçün çox vacibdir. Bununla belə, bu proses bəzən çətin və darıxdırıcı ola bilir ki, bu da motivasiyanın itirilməsinə səbəb olur. Xarici dil öyrənməkdə motivasiyanı artırmaq üçün bəzi təsirli strategiyalar var. Onlar aşağıdakılardır:

1. Bir çox insan dil öyrənmək istəyir, çünki bu, onlara daha yaxşı iş tapmaq, xaricdə təhsil almaq, və ya xarici ölkələrdə ünsiyyət vasitəsi kimi istifadə etməkdə faydalı olur.
2. Hədəf dilin mədəniyyətinə olan marağımız. Məsələn, məşhur rus müəlliflərinin kitablarını oxuya bilmək üçün biz rus dilini, Manqa zarafatlarını daha yaxşı başa düşmək üçün yapon dilini və ya sevimli məşhurlar haqqında məlumat almaq üçün ingilis dilini öyrənmək istəyirik.
3. Mənfi düşüncələrdən çəkinin: Mənfi düşüncələr motivasiyanıza mənfi təsir göstərə bilər. Səhvlərin normal olduğunu qəbul edin və özünüzü tənqid etmək əvəzinə davamlı təkmilləşdirməyi hədəfləyin.

Dil tədrisində əhəmiyyətli rola malik olan motivasiya şagirlərin maraq və həvəsini artıraraq daha effektiv nəticələr əldə etmələrinə kömək edir. Motivasiya daxili və xarici motivasiya olaraq iki yerə bölünür. Öyrənmək istəyi şagirdin öz istəyi və səyi ilə yaranırsa, həmin motivasiya daxili motivasiya, xarici təsirlər yolu ilə yanarnırsa, bu xarici motivasiya adlanır. Maraq, öyrənmək ehtiyacı, səriştə, təkmilləşmə istəyi daxili motivasiya misal ola bilər. Xarici motivasiyaya misal olaraq şagirdin aldığı yüksək qiymətlərə görə müəllimi tərəfindən təriflənməsi, mükafat, təqdir və s. göstərmək olar.Dörnyei və Csizer dil tədrisində tələbələrin motivasiyasını artırmaq üçün 1998-ci ildə Macarıstanda bir qrup müəllimlə araşdırma aparmış və tədqiqat

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 274-279*
https://doi.org/10.59849/2224-9257.2024.1.274
nəticəsində yeni dilin mənimsənilməsində motivasiyanın artırılması üçün təkliflər vermişdir. Bunlar aşağıdakılardır:

1. Müəllim dərs zamanı tələbənin diqqətini çəkəcək materiallar və tapşırıqlardan istifadə etməlidir.
2. Şagirdlərlə yaxşı münasibətlər qurmalı və onların özlərinə inamlarını artırmaqda yardımçı olmalıdır.
3. Hər bir tələbəyə fərdi şəkildə yanaşaraq onların dil ehtiyaclarını və öyrənmədə yaranan problemlərini aşkar etməlidir.
4. Dərs prosesinin təşkilində tələbələrin fikirlərini və maraqlarını nəzərə alaraq dərsin effektivliyini artırmalıdır.
5. Səhvlərin öyrənmə prosesinin bir hissəsi olmasını tələbələrə izah etməlidir
6. Şagirdləri hədəf dilin mədəniyyəti ilə tanış etməlidir.

**Təhsildə motivasiyanın önəmi.** Motivasiya təhsil sahəsində də önəmli fatorlardan biri hesab olunur. Araşdırmalar göstərir ki, dərsə motivasiya ilə başlayan tələbələr dərs boyu dərsə maraq göstərir və digər tələbələrdən daha yaxşı öyrənirlər. Bu səbəbdən tələbələri həvəsləndirmək diqqətdən kənarda qalmamalı bir məqamdır və onların motivasiyasında müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Lakin burada unudulan bir məqam var ki, o da müəllimin motivasiyasıdır. Müəllimin tələbələrini motivasiya etməsi, səmərəli dərs keçməsi və qarşısına qoyduğu məqsədə çatması üçün o ilk növbədə özünü motivasiya etməlidir. Daha sonra isə dərsin təşkil olunması və tələbələrin diqqətini dərsə necə yönəltmək olar kimi məsələlər üzərində çalışmalıdır. Bəs dərsləri tələbələr üçün necə daha əyləncəli və maraqlı təşkil etmək olar? Bunun üçün bir sıra təkliflər irəli sürülmüşdür. Onlar aşağıdakılardır:

1. Müəllim xarici dildə tapmacalar soruşmaqla dərsə başlamalıdır
2. Televiziya proqramlarından seçilmiş bir proqram və ya izləniləcək video, kaset və ya CD (audio-vizual yayımlar) vasitəsilə şagirdlərə müxtəlif və maraqlı materialları təqdim etmək.
3. Şagirdlərin səviyyəsinə uyğun olaraq seçilmiş mətnə görə hazırlanmış suallar şagirdə verilir. Bu zaman müəllim və şagird arasında dildən başqa vasitə yoxdur.
4. Şəkil və ya təsvir (danışıq) : Sinfi iki hissəyə bölərək yarısının ekrana digər yarısının isə kənara baxmasını istəyə bilərik. Ekranı görə bilə tələbələr görə bilməyən tələbələrə nələrin baş verdiyini danışmalıdır. Burada ekrana baxan şagirdlər əsasən ekranda nələrin baş verdiyini izləməyən şagirdlərə təsvir etməyə çalışarkən digər, yəni ekranı görməyən şagirdlər isə bütün diqqətlərini ekranda baş verənləri dinləməyə yönəldəcək. Filmin bir hissəsini izlədikdən sonra digər hissəsində yer dəyişimi ola bilər, yəni bu dəfə ekranı görməyən şagirdlər ekrana baxır və digər şagirdlərə nələrin baş verdiyini danışmağa (izah etməyə) çalışır və onlar (ekranı görməyən şagirdlər) görmədiklərini diqqətlə dinləyib anlamağa çalışır.

5. Filmlər, teatr, video. Hekayələrdə olduğu kimi, məzmun həqiqətən də əyləncəlidirsə (maraqlı, həvəsləndirici, yumoristik, dramatik) şagirdlər başqa bir tapşırığa ehtiyac olmadan bu dinləmə materialını başa düşmək üçün səy göstərəcək.
6. Səhvləri tapmaq. Müəllim bir hekayə danışır və ya sinfin bildiyi bir şeyi təsvir edir, ancaq o, qəsdən bir sıra səhvlər və ya uyğunsuzluqlar edir. Şagirdlər səhv bir şey eşidəndə əllərini qaldırır və yüksək səslə səhvi deyirlər.
7.

## ƏDƏBİYYAT


1. E.A. Nida, Learning a Foreign Language, Friendship Press, 1957, 212 s
2. Jeremy Harmer, English Language Teaching, Pearson Education Limited, 2007, 448 s
3. Penny Ur, A Course in Language Teaching, Cambridge University Press, 1996, 388 s
4. Mary Spratt, Alan Pulverness, Melanie Williams, The TKT, Cambridge University Press, 2011, 256 s
5. https://hayefjournal.org/Content/files/sayilar/108/108.pdf
6. https://dergipark.org.tr/tr/download/article-file/108458


**АРЗУ МАМЕДОВА**

## ЗНАЧЕНИЕ МОТИВАЦИИ ПРИ ПРЕПОДАВАНИИ ИНОСТРАННОГО ЯЗЫКА

## РЕЗЮМЕ

После перехода к современному обучению лингвисты и педагоги, отошедшие от классических методов обучения-преподавания, провели множество исследований по применению различных методов к учащимся при обучении иностранному языку, особенно в аудиторной среде. В результате исследования установлено, что понятие мотивации играет очень важную роль в процессе обучения иностранному языку.Словом, высокая мотивация является основой изучения и преподавания иностранного языка. Учитель может формировать мотивацию своих учеников разными способами. Например, организация различных игр для развития языковых навыков во время урока, использование видео, описание мероприятия через картинки и т. д. можно показать. Однако учителю следует обратить внимание на некоторые моменты при использовании этих методов. Потому что занятия в классе должны провоцировать учащихся на размышления и повышать их познавательную активность. Словом, как и на других этапах урока, использование разнообразия на мотивационном этапе является продуктом творческого подхода учителя к работе. Это приводит к тому, что студенты за короткое время становятся более успешными и с большим энтузиазмом относятся к учебе. Таким образом,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 274-279*
https://doi.org/10.59849/2224-9257.2024.1.274
можно сказать, что высокая мотивация является основным фактором, влияющим на лучшее усвоение и изучение иностранного языка студентами. Хотя успешный результат в обучении иностранному языку в основном зависит от мотивации, среды обучения и преподавания, отношений между учителем и учеником и некоторых других причин. Основная тема исследования – мотивация и ее значение на занятиях иностранным языком, два основных вида мотивации, предложения по повышению мотивации при изучении иностранного языка, способы организации интересных занятий по языку и их подробный анализ.

**Ключевые слова:** что такое мотивация, значение мотивации в образовании, внутренняя и внешняя мотивация, эффективные стратегии и предложения по повышению мотивации.

**ARZU MAMMADOVA**

## THE IMPORTANCE OF MOTIVATION DURING TEACHING FOREIGN LANGUAGE LESSONS

### SUMMARY

After the transition to modern teaching, linguists and pedagogues who went away from classical learning-teaching methods have conducted many studies on the application of different methods to students in foreign language teaching, especially in the classroom environment. As a result of the research, it was stated that the concept of motivation has a very important role in the process of teaching a foreign language. In other words, high motivation is the basis of learning and teaching a foreign language. A teacher can motivate his students in different ways. For example, the organization of various games for the development of language skills during the lesson, the usage of videos, the description of the event through pictures, etc. can be shown. However, a teacher should pay attention to some points when using these methods. Because classroom activities should provoke students to think and increase their cognitive activity. In other words , as in other stages of the lesson, the use of diversity in the motivation stage is a result of the teacher's creative approach to their work. This leads to students becoming more successful and more enthusiastic about their lessons in a short time. Therefore, we can say that high motivation is the main factor affecting students to acquire and learn a foreign language better. Although the successful result in foreign language teaching mainly depends on motivation, learning and teaching environment, relationship between a teacher and a student and some other reasons are also emphasized. The main subject of the research is motivation and its importance in foreign language classes, two

main types of motivation, suggestions for increasing motivation in foreign language learning, ways to organize interesting language lessons and their detailed analysis.

**Keywords:** what is motivation, importance of motivation in education, intrinsic and extrinsic motivation, effective strategies and suggestions to increase motivation.

**Rəyçi: ADU-nun Xarici Dillər Mərkəzinin b/m f.f.d. Əliquliyeva Mənsurə Tofiq qızı.**